Gəlmişəm həqdən ənəlhəq, gör nə Mənsur olmuşam,
Ruhi-qüdsün nitqiyəm, sər ta qədəm nur olmuşam.

Lövhi-məhfuzu mənəm, ruhül-əminin həmdəmi,
Həşr üçün mizanü İsrafilü həm sur olmuşam.

Bavücudam vəhdəti kəsrətdə isbat eyləyim,
Musayam anəstünara, nur ilə Tur olmuşam.

Gərçi qaibdir vücudum hər nəzərdən daima,
Gör nə nazir, gör nə mənzər, gör nə mənzur olmuşam.

Laməkanın gənciyəm, gərçi yerim viranədir,
Eylərəm məmur anı, gör kim, nə məmur olmuşam.

Surətü mə`ni mənəm, həm ism ilə, həm cismü can,
Gör necə mə`ni ilən surətdə məstur olmuşam.

Şöhrət afətdir, usandım şöhrətindən aləmin,
Gərçi həm əladavü əfsəldə məşhur olmuşam.

Ateşi-mehri-rüxün canımda təsir eylədi,
Mən bu oddan yanıram, yəni ki, məhrur olmuşam.

Misr camedir vücudum, anda qıldım cüməyi,
Gör nə şəhrəm, gör nə möhkəm qələvü sur olmuşam.

Zakirəm, zikr eylərəm, yəni ki, şeyxəm, sufiyəm,
Gör nə göyçək ad ilə aləmdə məzkur olmuşam.

Ey Nəsimi, cənnətü hur ol nigarın vəslidir,
Çün mən ol məhbubu buldum, cənnətü hur olmuşam.

***

Bu nə bərgüzidə candır ki, gəzər bu can içində?
Bu nə qiyməti gühərdir ki, yatar bu kan içində?

Səni kimdir adəm oğlu deyən, Allah, Allah, Allah,
Bu sifətdə kim, görübdür bəşəri-cahan içində?

Məgər uy verür ləbindən, irəməz yəqin bu sirrə,
Nə xəyal imiş bu, yarəb, xəbəri güman içində?

Qara qaşının, gözünün adı Qövsü Müştəridir,
Bu sitarənin oxun gör ərəbi kaman içində.

Üzünü niqab içində, yaşır, ey qəmər surətlü
Ki, rüxün qiyamət eylər bu axırzaman içində.

Səni məndən iraq, ey can, necə ayıra zəmanə,
Gözüm ilə görmüşəm çün səni hər məkan içində.

Yenə mey fəğanə gəldi, cigərim tutuşdu yandı,
Nəyə uğradı, nə gördü bu tühimiyan içində?

Dilərəm zaman-zaman kim, səni faş edəm cahana,
Necə bir yana bu şəmin cigəri düxan içində?

Bu dərin məaniyi gör ki, bəyan qılur Nəsimi,
Fələkin dili tutuldu bu ulu bəyan içində.

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 13.